***BƏXTİYAR VAHABZADƏ – 100***
***BAKHTIYAR VAHABZADE – 100***
***БАХТИЯР ВАГАБЗАДЕ – 100***

*UOT 37.01*

***Adilə Həsən qızı Nəzərova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*aparıcı elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0000-0002-4340-6882*
*E-mail: adile1970@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(6).17-20*

# BƏXTİYAR VAHABZADƏ YARADICILIĞI MİLLİ TƏRBİYƏ KONTEKSTİNDƏ

***Adila Hasan Nazarova***
*leading researcher*
*at the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of philosophy in philology*

# BAKHTIYAR VAHABZADE'S CREATIVITY IN THE CONTEXT OF NATIONAL EDUCATION

***Адила Гасан гызы Назарова***
*ведущий научный сотрудник*
*Института Образования Азербайджанской Республики*
*доктор философии по филологии*

# ТВОРЧЕСТВО БАХТИЯРА ВАГАБЗАДЕ В КОНТЕКСТЕ НАЦИОНАЛЬНОГО ВОСПИТАНИЯ

**Xülasə.** Məqalədə görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı milli tərbiyə aspektindən təhlil olunur. Şairin əsərlərinin vətənpərvərlik, ana dili sevgisi, milli kimliyin qorunması və mənəvi-əxlaqi dəyərlərin təbliği baxımından pedaqoji əhəmiyyəti araşdırılır. "Gülüstan", "Ana", "Ana dili", "Qarabağ atı", "Özüm olmalıyam", "Torpaqdan pay olmaz" kimi şeirlərindən gətirilən nümunələrlə müəllifin həm şair, həm də pedaqoq kimi fəaliyyəti işıqlandırılır, onun yaradıcılığının təhsil prosesində milli-mənəvi tərbiyənin mühüm resursu olduğu əsaslandırılır.
***Açar sözlər:*** *Bəxtiyar Vahabzadə, milli tərbiyə, pedaqoji əhəmiyyət, vətənpərvərlik, ana dili, mənəvi-əxlaqi dəyərlər*

**Abstract.** The article analyzes the work of the prominent Azerbaijani poet Bakhtiyar Vahabzade from the aspect of national education. The pedagogical significance of the poet's works in terms of patriotism, love of the native language, protection of national identity and promotion of moral and spiritual values is examined. With examples from his poems such as "Gulustan", "Mother", "Mother language", "Karabakh horse", "I must be myself", "There is no share of the land", the author's activity as both a poet and a teacher is highlighted, and it is substantiated that his work is an important resource of national and spiritual education in the educational process.
***Keywords:*** *Bakhtiyar Vahabzade, national upbringing, pedagogical significance, patriotism, mother tongue, moral-ethical values*

**Аннотация.** В статье анализируется творчество выдающегося азербайджанского поэта Бахтияра Вагабзаде с точки зрения национального воспитания. Рассматривается педагогическое значение произведений поэта в воспитании патриотизма, любви к родному языку, защите национальной

идентичности и пропаганде морально-нравственных ценностей. На примерах из его стихотворений «Гюлистан», «Мать», «Родной язык», «Карабахский конь», «Я должен быть собой», «Нет доли от земли» освещается деятельность автора как поэта и педагога, обосновывается, что его творчество является важным ресурсом национально-духовного воспитания в образовательном процессе.

***Ключевые слова:*** *Бахтияр Вахабзаде, национальное воспитание, педагогическое значение, патриотизм, родной язык, нравственно-этические ценности*

Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə yalnız ədəbiyyatın deyil, həm də milli tərbiyə sisteminin əsas simalarından biridir. Onun şeirləri və digər bədii əsərləri, xüsusilə sovet dövründə, milli şüurun formalaşmasına və inkişafına, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə əhəmiyyətli təsir göstərmişdir. Şairin şeirlərində vətən sevgisi və milli kimlik mövzusu mərkəzi yer tutur. "Gülüstan" poemasında xalqımızın qarşılaşdığı ən böyük faciə – vətənin ikiyə bölünməsi poetik şəkildə təsvir edilir.

Arazın suları qəzəbli, daşqın,
Şirin nəğmələri ahdır, haraydır.
Vətən quşa bənzər, qanadlarının
Biri bu taydırsa, biri o taydır.

Göründüyü kimi, bu şeir həm milli şüura, həm də insani dəyərlərə hörmət oyadır. Vətənin yalnız coğrafi məkan olmadığını, onun həm də tarixi mədəni dəyərlərlə bağlı olduğunu göstərir. (1)

İki yüz ildən artıq davam edən ayrılıq ağrısı, həsrət bu misralarda canlı şəkildə təqdim olunur.

Dayanıb Arazın bu tayında mən
"Can qardaş" deyirəm, o da "can" deyir.
Ey zaman, sorğuma cavab ver, nədən
Səsim yetən yerə, əlim yetməyir? (4, s.76)

Poemanın sovet dövründə uzun müddət nəşrinə qadağa qoyulması da təsadüfi deyil. Çünki "Gülüstan" təkcə poetik əsər deyil, milli yaddaşı oyadan, azadlıq arzusunu gücləndirən, milli birliyə çağıran ideoloji sənəd olaraq dəyərləndirilir. Bədii-poetik şəkildə, gizli alt mənalarla ötürülən bu mesajlar xalqın yaddaşında milli mübarizə ruhunun qorunmasına xidmət edib və etməkdədir.

Ağalar bilmədi birdir bu torpaq
Təbriz də, Bakı da Azərbaycandır.
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.

Pedaqoji baxımdan "Gülüstan"ın əhəmiyyəti bir neçə yöndən dəyərləndirilə bilər:

– Poema gənclərdə milli kimlik sevgisi oyadır, oxucunun qəlbində torpağa, yurda bağlılıq hissini gücləndirir. Bu, vətənpərvərlik tərbiyəsinin ən güclü vasitələrindən biridir.

– Əsər gənclərə öyrədir ki, xalqın gücü birliyindədir. Parçalanmış vətən obrazı milli birliyin zəruriliyini göstərir, birlik və ailə bağlarının qopmasının ağrılı təzahürü gənc nəsili bu kimi dəyərləri qorumağa təşviq edir.

– "Gülüstan" yalnız siyasi və tarixi mövzu deyil, həm də insani və mənəvi dəyərləri ehtiva edir.

Beləliklə, "Gülüstan" poemasında qoyulan problem bu gün də hər birimizi düşündürür. Eyni zamanda əsərin orta və ali məktəblərdə tədrisi qoyulan problem baxımından önəmlidir.

Azərbaycan ədəbiyyatının, xüsusilə də XX əsr poeziyasının zirvələrindən biri olan B. Vahabzadənin əsərlərində müdrik həyat müşahidələri, xalqın tarixi yaddaşı və gəncliyi oyadan mənəvi dəyərlər zəngin şəkildə öz əksini tapır.

Şairin yaradıcılığında əsas ideya xətti vətən sevgisidir. Onun misralarında torpağın qoxusu, Xəzərin nəfəsi, Arazın səsi duyulur. Şair dəfələrlə vurğulamışdır ki, vətənsiz və millətsiz şair ola bilməz. Bu, pedaqoji baxımdan böyük əhəmiyyət daşıyır. Çünki gənclər şairin əsərlərini oxuduqca torpağa bağlılıq, milli kimliyini qorumaq və vətənə sədaqət kimi dəyərləri öyrənirlər.

B. Vahabzadə yalnız şair deyil, həm də dramaturq və alim kimi fəaliyyət göstərmiş, 70-dən artıq kitab, monoqrafiya və yüzlərlə məqalə yazmışdır. Bu zəngin irs həm sənət, həm də milli şüurun gücləndirilməsi baxımından böyük rol oynayır. Beləliklə, B. Vahabzadənin yaradıcılığı həm bədii-estetik, həm də pedaqoji mənbə kimi dəyərlidir.

Azərbaycan poeziyasının inkişafında olduğu qədər vətəndaşlıq ruhunun formalaşmasında da B. Vahabzadənin xüsusi xidmətləri vardır. Şair dilimizin poetik imkanlarından ustalıqla istifadə edərək fəlsəfi məzmunlu lirikanın unikal nümunələrini yaratmışdır. Onun yaradıcılığı mənəvi ucalıq, insanın və zamanın mənası, təbiət və həyat haqqında dərin düşüncələrlə zəngindir. Bu xüsusiyyətləri ilə B. Vahabzadənin əsərləri yalnız ədəbi-estetik dəyər kəsb etmir, həm də gənclərin mənəvi və vətənpərvər tərbiyəsində effektiv pedaqoji vasitədir. Onun poeziyası ədə-

bi ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmış və tədris prosesində milli-mənəvi dəyərlərin aşılanması üçün əvəzsiz resurs olmuşdur.

Şairin yaradıcılığında Qarabağ mövzusu da mühüm yer tutur. "Qarabağ atı" şeirində milli ruhu, igidliyi və mübarizəni simvolizə edən obrazlar gənclərin düşüncə tərzinə, dünyagörüşünə təsir edən pedaqoji mənbə rolunu oynayır.

Qarabağın cins atları –
hünərimin kişnərtisi,
Toppuzların gurultusu,
Qılıncların parıltısı,
Neştər səsi!
Qarabağın kürən atı –
Döyüşlərdə arxasıdır
Koroğlunun,
Bayandurun.
Cilovunu gəmirdimi,
hünəriniz varsa əgər o qızmamış,
Qamçıların hədəsinə dayandırın!

Nümunədən də göründüyü kimi bu misralarda sözlərin enerjisi və poetik gücü olduqca yüksəkdir. Məsələn: "Hünərimin kişnərtisi", "Toppuzların gurultusu", "Qılıncların parıltısı", "Neştər səsi" kimi ifadələrdəki səslər bir-birinə ritmik və təsirli şəkildə qoşulur. "K", "q", "t" kimi sərt səslər döyüşün və qəhrəmanlığın gücünü çatdırır. Bu da oxucuya sanki döyüş sədası və atların hərəkətini duymaq imkanı verir. Burada atar Qarabağın igidliyi, mübarizəsi və qəhrəmanlığı ilə simvolizə olunur. Misraların həyəcanlı dili fəth ruhu yaradır.

Atların hərəkəti və döyüş səhnəsi, sözlərin ritmi və təsviri oxucuda adrenalini artırır, oxu enerjisini yüksəldir. Şeir bütövlükdə yüksək poetik enerji ilə doludur.

Şairin 1966-cı ildə yazdığı "Torpaqdan pay olmaz" şeirində ifadə olunan torpağın yalnız qan və mübarizə ilə qorunacağı fikri 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə birbaşa əlaqələndirilə bilər. Şeirdəki misralar:

Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı ancaq
Qanla möhürləyib, zorla alarlar.

Bu misralar gəncləri doğma torpaq uğrunda mübarizəyə çağırır. Zəfərlə nəticələnən Vətən müharibəsi zamanı Azərbaycan ordusunun qəhrəmanlığı və xalqın birliyi şairin bu sözlərini reallığa çevirdi. Qarabağın azad olunması, torpağın qan və igidliklə qorunması, B. Vahabzadənin əsərindəki ideyanı təsdiqlədi.

Bu şeir və onun müasir hadisələrlə uyğunluğu gənclərə göstərir ki, vətənə bağlılıq təkcə sözlə deyil, həm də hərəkət və fədakarlıqla təsdiqlənməlidir. Müharibə və zəfər nümunəsi vasitəsilə gənclərə milli şüur, torpağa sahiblik və vətənpərvərlik hissləri aşılanır. Bu baxımdan şeir həm ədəbi, həm də pedaqoji resurs kimi qiymətlidir.

Azərbaycan poeziyasında ana obrazı həmişə müqəddəs və bəşəri bir rəmz kimi təqdim olunub. Bu obraz B. Vahabzadənin "Ana" şeirində yalnız ədəbi sənət nümunəsi deyil, həm də gənclərin mənəvi və psixoloji tərbiyəsi üçün dərin məna daşıyır. Şair ana obrazını sadəcə bioloji varlıq kimi deyil, insanın mənəvi bütövlüyünü, vətənə və xalqa bağlılığını, şəfqət və mərhəməti təcəssüm etdirən rəmz kimi təqdim edir. Bu yanaşma gənclərin həm ailəyə, həm də milli-mənəvi dəyərlərə hörmət və sevgi hissinin formalaşmasında mühüm pedaqoji vasitədir.

B. Vahabzadə yaradıcılığında ana dilinə xüsusi önəm vermişdir. Hələ sovet dövründə "Ana dili" (1959), "Dilimiz" (1971), "Ana dili – ana südü kimidir" (1968) və "Sənin dilin sənin varlığındır" (1976) kimi şeirlərilə dilin xalqın milli varlığının, tarixi yaddaşının və mənəviyyatının əsas dayağı olduğu həqiqətini unudulmağa qoymamışdır.

Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək!

Nümunələrdən göründüyü kimi, dil mövzusu şairin yaradıcılığında milli kimliyin qorunmasının əsas dayaqlarından biri kimi təqdim olunur.

"Ş*airin yaradıcılığı bütün təşəkkül mərhələlərində öz fərdi-poetik ruhu və xüsusiyyətlərini qoruyub saxlamış, məxsusi olmuşdur. Bunların sırasında milli-mənlik mövzusu həmişə seçilən olmuşdur. Bu mənada "Biz kimik" şeiri seçilənlər sırasındadır."* (2, s.7)

Uzun illər düşünmüşəm:
Millətlərin cərgəsində biz də varıq,
Yurdumuza qəsd edənin
Gözlərini oyanlarıq.
Biz o qədər nəcibik ki,
Bir balaca işarədən söz anlarıq,
Haqla zoru ayırd edib,
Öz yerinə qoyanlarıq.

Bu əsərlər, pedaqoji baxımdan, şagirdlərə ana dilinin müqəddəsliyini və qorunmasının vacibliyini göstərən əsas vasitələrdir. Dil vasitəsilə milli kimliyin qorunması və inkişafı məsələsi, şairin yaradıcılığında əsas mövzulardan biridir.

B. Vahabzadənin şeirlərində yalnız estetik zövq deyil, həm də əxlaqi prinsiplər ön plana çıxır. Dürüstlük, ədalət, humanizm kimi dəyərlər onun yaradıcılığında əsas yer tutur və gənc oxuculara mənəvi tərbiyə vasitəsi kimi çatdırılır. Şeirlər təhsil, məktəb quruculuğu, gənclərin milli mənəvi və əxlaqi tərbiyəsi və təlimi, müəllim haqqında fikirlərini və s. məsələləri açmağa imkan verir.

Məsələn, "Qiymət" şeirində: *"Yarıya bölünür günüm, saatım, / Vaxt mənim sərvətim, mənim varımdır. / Müəllimlik mənim günüm, həyatım, / Şairlik – ən uca duyğularımdır. (5, s.365)*

"Özüm olmalıyam" şeirində şair özünü dərk etməyin və öz kimliyini tapmağın vacibliyini vurğulayır. Mənə görə bu şeir bütövlükdə gənclərin şəxsiyyət kimi formalaşmasına və mənəvi inkişafına xidmət edən bir poetik nümunədir.

Bildiyimiz kimi, B. Vahabzadə həm də müəllim kimi fəaliyyət göstərmiş, gənclərə ədəbi və mənəvi dəyərləri çatdırmışdır. Onun pedaqoji yanaşması şagirdlərlə ünsiyyətdə hörmət və inam prinsipinə əsaslanırdı. Bu, onun yaradıcılığı ilə birləşərək təlim-tərbiyə prosesinə birbaşa təsir göstərirdi.

S.Y. Kərimova "B. Vahabzadənin pedaqoji görüşləri" adlı dissertasiyasında qeyd edir ki, *"Şair – mütəfəkkir Bəxtiyar Vahabzadənin təhsilə, pedaqoji problemlərə münasibəti heç də onun nəzəri müddəalarından irəli gəlmir. ...Müntəzəm olaraq müəllimlərlə, tələbələrlə qarşılıqlı əlaqəli münasibət, tədris planları və proqramları, dərsliklərlə işləmək ona imkan vermişdir ki, təhsilin, pedaqoji problemlərin keçilmiş yoluna baxsın, bu günü ilə yaşamaqla bərabər sabahını görsün."* (1, s.5)

B. Vahabzadənin yaradıcılığı milli tərbiyə baxımından zəngin və çoxşaxəlidir. Onun "Azərbaycan", "Dağlar", "Qarabağ", "Vətən", "Şəhidlər", "Müharibə" "Bayrağım", "Vətənim mənim", "Torpaq", "Yurdum" və s. şeirləri yalnız ədəbi sənət nümunəsi deyil, həm də gənclərin mənəvi, əxlaqi və intellektual inkişafına xidmət edən mənbədir.

Bu il şairin 100 illiyini qeyd edərkən, biz yalnız böyük şairi deyil, həm də böyük bir pedaqoqu xatırlayırıq. B. Vahabzadənin əsərləri gələcək nəsillər üçün də həm estetik, həm də millitərbiyəvi rol oynayacaqdır.

**Problemin aktuallığı.** B. Vahabzadənin əsərləri bu gün də təhsil və tərbiyə prosesində gənclərin milli kimliyini və vətənə bağlılıq hissini gücləndirməkdə davam edir və milli tərbiyə gənclərin mənəvi-əxlaqi inkişafı baxımından müasir dövrdə də aktualdır.

**Problemin yeniliyi. Y**aradıcılığının pedaqoji aspektlərinin araşdırılması göstərir ki, şairin əsərləri sadəcə bədii sənət nümunəsi kimi deyil, həm də təlim-tərbiyə prosesi üçün zəngin resurs kimi dəyərləndirilə bilər.

**Praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri təhsil və tərbiyə sahəsində çalışan müəllimlər, ədəbiyyat müəllimləri və pedaqoji tədqiqatçılar üçün faydalı ola bilər. Həmçinin, şagirdlərin koqnitiv və kritik düşüncə, estetik zövq və milli şüur inkişafına töhfə verən pedaqoji resurs kimi dəyərləndirilə bilər.

## Ədəbiyyat


1. Kərimova, S.Y. Bəxtiyar Vahabzadə yaradıcılığında tərbiyə məsələləri / S.Y. Kərimova. –Bakı: Nurlan, –2009. –156 s.
2. Nəbibəyli, Z. Bəxtiyar Vahabzadənin milli-mənəvi Portreti / Z. Nəbibəyli – Bakı: Ecoprint, 2022. –164 s.
3. Rzabəyli J. Poeziyanın vətənpərvərlik hisslərinin tərbiyəsinə təsiri böyükdür. 01.08.2013 https://www.olimpnews.az/post/1519/poeziyanin-vetenperverlik-hisslerinin-terbiyesine-tesiri-boyukdur-1519?utm_source=chatgpt.com
4. Vahabzadə, B. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). – Bakı: Öndər, – 2004. – 320 s.
5. Vahabzadə, B. Seçilmiş əsərləri, 2 cilddə, II c. – Bakı: Yazıçı, – 1984. – 458 s.


**Redaksiyaya daxil olub:** 30.09.2025.